# Əllərimin Əksi

**Xəlil Rza Ulutürk**

© Uzun sürən gənclik. 1994.

Cinayət axtaranlar bu gün yenə səfərbər,
Yenə qol çirmədilər.
Çəkmək üçün şəklimi profildən, qabaqdan,
Zər paqonlu fotoqraf hazırlaşıb bayaqdan.

Qara örtük dalından baxdı, gözünü sildi,
Aparat deşiyindən mənə diqqət kəsildi.

Basdı düyməni:—Çırıkk.
Hazırdı şəklin.—dedi.

Çəkməliyik indi də əllərinin şəklini.
Ürəyimdə:—Ey xədim,
Buyur, hazıram dedim,
qollarımı çirmədim.
Ağappaq əllərimə boya çəkdi qapqara;
—Bas ovcunu, möhkəm bas bu təmiz varaqlara.

Aldı, diqqətlə aldı,
Mahir fotobaz kimi
Sağ ovucumun əksini,
Sol ovucumun əksini.

Ovcumun içindəki çalın-çarpaz cizgilər
Hey uzanan, hardasa kəsişən relsə bənzər.

Bəlkə ovcum içindən qatarlar gəlib keçib,
Bəlkə ovcum içində aerodrom yerləşib?

Odur sabun, isti su.
Yu əlini, təmiz yu.

Sabun-gülab, su qaynar, ovcum—bahar səması,
Yudum, getdi qarası.

—Ruki nazad—söyləyən kanvoy başqa bir əmma.

Gəldim, əlim arxada, çəkildim yatağıma.

Xəlil Rza, canisən,
Qaça bilməzsən daha.

Uzundraz keçəl qız daim ciddi, səfərbər,
Çeçələ barmağımdan baş barmağıma qədər,
Köçürdü hər şeyimi,
Heyf, unutdu birini,
Qızına müştərini.
Yatağıma qor dolub, baxıram əllərimə.
Əllərimin dərdini kimə deyim mən, kimə?

Planetdir əllərim,
Biri sağ yarimkürə, biri sol yarımkürə.

Əllərimə baxıram,
nə gövhərdir, nə də zər,
Qələm tutan, daş yonan,
külüng vuran bu əllər.
Ayı, Marsı dolaşan,
Yupiterə yol açan
kosmik qüdrətə bənzər.
Ömründə bircə quzu,
toyuq başı kəsməyən,
Yad cibə uzanmayan,
Qismətindən küsməyən
Bu kiçik əllərimlə
gah quruda, gah suda
sal qayalar yarmışam.
Boz buluddan ildırım,
daşdan ləl çıxarmışam.
Sən də aç əllərini, ey gözü dar, qəsbkar,
neyləmisən görək sən?
Torpağımı tutmağa
Ordular yeritmisən.
Topla, tankla girmisən
müqəddəs bir ölkəyə.
Əsarət gətirmisən
“xilaskarınam” deyə.
Bayrağımı endirib
əməli qan, rəngi qan.
Telindən zəhər daman
bir bayraq qaldırmısan.
Şərbətimi, şəhdimi
zəqquma döndərmisən.
Sal qayadan siqlətli
cəsur babalarımı

Gedər-gəlməz yollara,
Məzara göndərmisən.
Aç görək əllərini,
görək kimdi cahanda
üzü qara, üzü ağ?
O əldimi, ya caynaq?
Əsrik şimal nəhəngi,
Əyripəncə qurumsaq.
Balaca bir torpağa
özündən qat-qat ağır
ağı, zəhər tökmüsən.
Ev-ev, yurd-yurd, kəndbəkənd
Sökmüsən,
Ağ günümün boğazına çökmüsən.
Yorğanımın içindən,
döşəyimin küncündən
çıxarmısan yunumu.
Əlifbamı almısan,
Dəyişməkçin yönümü.
Al günəşin altında
Kətmən vuran, ot çalan,
Sübhədək oyaq qalan.
Qızılgül-qızlarımın
hüsnünü soldurmusan.
Dərya-dərya neftimi
Mənim dodaqlarımla
damla-damla sormusan.
Laykürək mərdlərimi
mərmiyə, top ağzına,
tank altına vermisən.
Jmıx yedirib mənə,
Bağlarımdan portağal,
Alma, limon dərmisən.
Aldığım pambıqları
səpələsəm göylərə,
bəlkə kahkaşan olar.
İpəyimin zolağı
ekvatoru dolanar.
Ərdəbili çalmısan,
Təbrizimi sökmüsən.
Xəzinələr qurmusan
mənim hesabıma sən.
Aç ovcumu bir görək
Kim doğrudur, kim oğru?
Astaradan Tallinə,
Çukotdan Elbayadək
dünyalar qamarlayan
ey planet quldduru.

İflic deyilsənsə, gəl,
bir yaxın gəl irəli.
Görək kimin əlləri
qurur, tikir, yaradır,
Dirsəyəcən qandadır
görək kimin əlləri?..

Moskva, Lefortova zindanı,
8 mart 1990.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: aprel, 2004